AZƏRBAYCAN RESPUBLİKASI
MƏDƏNİYYƏT NAZİRLİYİ
MƏDƏNİ İRSİN QORUNMASI, İNKİŞAFI
VƏ BƏRPASI ÜZRƏ DÖVLƏT XİDMƏTİ

SOYQIRIMI MEMORİAL KOMPLEKSİ

III QUBA SİMPOZİUMU

QORUQLAR VƏ MUZEYLƏR - KEÇMİŞDƏN GƏLƏCƏYƏ KÖRPÜ

Quba – 2025

Layihə rəhbəri: **Dr. Rəxşəndə Bayramova**

İdeya müəllifi: **Namiq Bağırlı**
Layihənin koordinatoru: **Nazilə Məmmədova**
Kitabın üz qapağının tərtibatçısı: **Mikayıl Sultanzadə**

Ədəbi redaktor və korrektor
Namiq Bağırlı
Quba şəhərində "Soyqırımı Memorial Kompleksi"nin Elmi Araşdırmalar, Ekspozisiya və Fond şöbəsinin əməkdaşı

Dizayn və texniki tərtibat
Mikayıl Sultanzadə
Quba şəhərində "Soyqırımı Memorial Kompleksi"nin Elmi Araşdırmalar, Ekspozisiya və Fond şöbəsinin əməkdaşı
Zərifə Əlirzayeva
Quba şəhərində "Soyqırımı Memorial Kompleksi"nin Elmi Araşdırmalar, Ekspozisiya və Fond şöbəsinin əməkdaşı

REDAKSİYA HEYƏTİ

Baş redaktor
Dr. Rəxşəndə Bayramova
Quba şəhərində "Soyqırımı Memorial Kompleksi"nin direktoru

Dr., dos. Yeganə Eyvazova
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Muzeyşünaslıq kafedrasının müdiri

Dr. Kəmalə Nuriyeva
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktor müavini

Dr. Aysel Şeydayeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının direktor müavini

Dr. Nailə Əliyeva
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, şöbə müdiri

Dr., dos. Sübhan Talıblı
AMEA-nın Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi

Dr. Sevil Bəhrəmova
Bakı Avrasiya Universitetinin Ümumi fənlər kafedrasının müdiri

Dr. Aidə İsmayılova
Milli Azərbaycan Tarixi Muzeyinin böyük elmi işçisi

Dr. Günay Həsənova
Qərbi Kaspi Universitetinin tarix kafedrasının müəllimi

Dr. Aytən Əsədova
Sumqayıt Dövlət Universitetinin baş müəllimi

Dr. Təhminə Əliyeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının Humanitar elmlər kafedrasının baş müəllimi

Dr. Gülsəba Həsənova
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin şöbə müdiri

Dr. Laçın Mustafayev
Milli Azərbaycan Tarixi Muzeyinin böyük elmi işçisi

Dr. Elnur Nəciyev
Bakı Mühəndislik Universitetinin baş müəllimi

Qoruqlar və Muzeylər - Keçmişdən Gələcəyə Körpü adlı III Quba Simpoziumu çərçivəsində təqdim edilmiş məqalələr toplusunda yer alan elmi məqalələr mövzu baxımından aşağıdakı bölmələr üzrə qruplaşdırılmışdır:

I - Qoruq və muzeylərdə mədəni irsin qorunmasi və tədqiqi

II - Qoruq və muzeylərdə innovasiya və müasir yanaşmalar

III - Qoruq və muzeylərin beynəlxalq əməkdaşlığı və tarixi inkişafi

IV - Sənət əsərləri

MÜNDƏRİCAT

Ön söz....9

Foreword....10

I Bölmə

Qoruq və muzeylərdə mədəni irsin qorunması və tədqiqi....11

Bayramova Rəxşəndə

Quba soyqırımı (aprel-may 1918-ci il) və bu soyqırımı ilə bağlı məlumatların ziyarətçilərə çatdırılmasında məlumat və xəritə kitabçalarının önəmi....12

Eyvazova Yeganə

Tarixi-mədəni qoruq mühitində memarlıq abidələrinin əlahiddəliyi....21

Əliyeva Həbibə

Milli Azərbaycan Tarixi muzeyində qorunan epiqrafik abidələrin Azərbaycan tarixinin öyrənilməsində rolu....26

Knyaz Aslan

Müasir tədris prosesində məktəb muzeylərinin rolu 36

Mehrəliyeva Nailə

Pedaqoji muzeylərin müasir muzeyşünaslıq istiqamətində rolu....44

Bəhrəmova Sevil

Azərbaycanda dini abidələrin qorunması və bərpası....49

Kərimova-Kocayeva Tamilla

A.A.Bakıxanov adına Quba Tarix-diyarşünaslıq Muzeyinin ilk direktoru–Əhməd Əfəndi Çələbizadə....54

Şeydayeva Aysel

Qubada maarifçilik tarixinin yaşayan nümunəsi: bələdçilər üçün məlumat....61

Həsənova Gülsəba

Muzey eksponatları və onlara dair sənədlərin mühafizəsində bərpa və konservasıyanın əhəmiyyəti....67

Mustafayev Laçın

Maddi irsin tədqiqi və təbliği prinsipləri....73

Heydərova Sevinc

Musiqi və mədəni irs arasında körpü....81

Məcidov Mobil, Süleymanov Seymur

Mədəni irsin qorunmasında qoruq və muzeylərin əhəmiyyəti....86

Cavadova Zərifə

Tarixi abidələrin Şamaxıya turistlərin cəlb edilməsində rolu....93

İsmayılov Ceyhun

Yanar dağ–təbii irsin turizm məhsuluna çevrilməsi....100

Nəsibov Faiq

Abşeronun qədim arxeoloji irsi və onun qorunması....106

Nəciyev Elnur
Qədim Alban yolu: keçmişin izi ilə, gələcəyin yolunda....113

Həsənova Günay
Qafqaz xalqlarının mədəniyyətinə fotoetnoqrafik baxış: muzeylərin elmi missiyası....120

Əliyeva Təhminə
Tarix fənninin tədrisində muzeylərə ekskursiyaların təşkilinin faydası....126

Əliyev Mürvət
Mezolit dövrünün tarixi xəbərçisi-qobustan dövlət tarix-bədii qoruğu....132

Məmmədova Aidə
Muzeylərdə sərgilənən boyanaxışlı qablar maddi və mənəvi mədəniyyətimizin daşıyıcılarıdır....137

Nərimanlı Əfşan
XXI əsrin əvvəllərində Quba-Xaçmaz regionunda mədəniyyətin inkişafina təsir göstərən amillər....146

Əliyeva Leyla
Azərbaycanda muzeylərin inkişaf tarixi 151

Əsədova Aytən
Azərbaycanın təbii muzeyi - Şuşa şəhərinin mədəni turizm imkanları....158

Beybutova Lətafət
Qarabağın tarix və mədəniyyət abidələrinə qarşı qeyri-insani əməllər....166

Əfənidyeva Aynurə
Mədəni irsin qorunması və ötürülməsində tarixi memarlıq abidələrinin rolu....170

Əhmədova Şəhla
Şuşa şəhərinin tarixindən....174

Qurbanova Bəsdi
Muzeylərdə əlilliyi olan insanlarla işin təşkili xüsusiyyətləri....181

Pirquliyeva Günel
Çıraqqala: tarixi, arxeoloji araşdırmalar və bərpa-konservasiya təhlilləri....187

Rzayeva Günay
Basqal qoruğu – ekoturizmin yeni ünvanı....192

Nərimanova Afaq
Rus şərqşünaslığı tarixində kunstkamera muzeyinin rolu....197

Şirinova Nəhayət
Heydər Əliyev ideologiyasinda qoruq və muzey mövzusu: mədəni irsin qorunması kontekstində siyasi və institusion yanaşma....202

İmanova Səbinə
Muzeylərin turizm obyektlərindəki fəaliyyətini təmiin edən amillər....205

Seyidov Məhiyəddin
Abidələrin bərpasi və konservasiyası....209

İsmaylova Nübar
Tarixi abidələrin qorunması və bərpasında yeni yanaşmalar...217

Əlirzayeva Zərifə
Muzeylərin Azərbaycanda milli-mədəni irsin qorunmasında rolu...222

Aslanov İslam
Muzeylərin təhsil prosesoində rolu...228

Ağamoğlanov Hilal
Qərbi Azərbycandakı dini maddi-mənəvi mirasımız və onların araşdırılmasının əhəmiyyəti...234

Həsənli Aygün
Muzeylərin inkişaf tarixi...240

Mirzəhmədova Arzu
Milli Azərbaycan tarixi muzeyində arxeoloji kolleksiyaların mühafizəsi...245

Aslanova Sveta
Heydər Əliyev Mərkəzi və orada keçirilən müasir sərgilər...251

İbrahimli Nigar
Ədəbi-mədəni irsin qorumasında Nizami Muzeyinin arxivlərinin rolu: elektron arxivlər və sərgilər...256

Zeynalova Vəfaxanım
Orta məktəbdə muzey otaqlarının yaradılmasının pedaqoji məqsədləri...264

Kərimova Xatirə
Mirzə Kazimbəyin "Türk-tatar dilinin qrammatikası" əsəri – yazılı tarixi abidə kimi...270

Mehdiyeva İradə
Bələdçinin qoruq auditoriyası ilə iş prinsipi...275

Zərgərova Ellada
İçərişəhər Dövlət Tarix-memarlıq qoruğu: UNESCO siyahısına gedən yol...279

Həsənova Səriyyə
Qarabağin tarixi izi: işğaldan sonra abidələrin bərpası; milli mənəvi dəyərlər...285

Cəfərova Rahil
"Heydər Əliyev muzeyləri: Azərbaycanın yeni və ən yeni tarixinin keşiyində"...291

II Bölmə
Qoruq və muzeylərdə innovasiya və müasir yanaşmalar...297

Talıblı Sübhan
Təbrizin maddi-mənəvi irsi...298

Fərəcova Məlahət
Keçmişi Qorumaq üçün Gələcəyin Texnologiyaları: Azərbaycanın Qayaüstü
İncəsənətinin Öyrənilməsində 3D Modelləşdirmənin Tətbiqi...305

Əliyeva Nailə
Süni intellektin muzey işində tətbiqi...311

Qardaşov Rəşad, Həsənova Aysel
Kitab abidələrinin elektron kataloqlaşdırılması..316

Əliyeva Səadət
Arxeologiyanın gələcəyi-Avey qoruğunda süni intellekt və rəqəmsal texnologiyaların perspektivləri.......325

Səlimli Nuranə
Azərbaycan Milli İncəsənət Muzeyi təcrübəsində multimedia layihələri və rəqəmsal həllər.......................330

Nuriyeva Kəmalə
Yazılı və şifahi ədəbiyyatın eksponatlarla təqdimi və ekpozisiya ilə əlaqələndirilməsi üsulları................335

Babayeva Səbinə
Muzey və sərgilərdə istifadə olunan texnologiyalar..342

Qasımli Hacıbala, Məhəmmədli Daşqın
Turizm fəaliyyətinin informasiya təminatında bələdçilərin rolu..349

Bağırlı Namiq
Qoruq və muzeylərdə bələdçilik fəaliyyətinin əsas meyarları..355

Nağıyeva Rəqsanə
Cəmiyyətin qoruq və muzeylərə marağının artırılması və qoruq muzey marketinqi................................362

Babayeva Ləman
Azərbaycanda muzey auditoriyası və ziyarətçi profilinin sosiomədəni təhlili..369

Məmmədova Nazilə
Müasir texnologiyalar kontekstində azərbaycan muzey və qoruqlarinin inkişaf perspektivləri................376

Laçınova Selcan
İnklüziv təhsil və muzey pedoqogikası: uşaqlar üçün alternativ öyrənmə platforması
kimi uşaq muzeylərinin rolu..382

Nəzirov Sabir, Həsənova Nuranə
Qobustan Milli Tarix-Bədii Qoruğu kontekstində mədəni irs nümunələrinin rəqəmsal
sənədləşdirilməsi..391

Əliyeva Aytən
Mədəni irsin qorunması və rəqəmsallaşdırılması..399

Ağayeva Şəbnəm, Verdiyeva Günay
Muzeylərin əlçatan olmağında inklüzivliyin rolu: əlilliyi olan şəxslər üçün yeni perspektivlər................405

Ələkbərova Aynur
Qobustan muzeyi yeni texnologiyalar kontekstində..413

Əliyeva Nəzirə
Mədəni irs və rəqəmsal transformasiya: süni intellektin tətbiq sərhədləri..419

Zeynalova Ülkər
Muzey bələdçiliyinin mədəni maarifləndirmədə rolu və əhəmiyyəti..427

Muxtarov Fərrux
Müasir bələdçilik metodları: interaktiv və immersiv təcrübələrin tədqiqi və tətbiqi....................................431

III Bölmə
Qoruq və muzeylərin beynəlxalq əməkdaşlığı və tarixi inkişafı..438

İsmayılova Aida
Beynəlxalq muzey etik standartları və Azərbaycan muzeyləri...439

Əliyeva Mehriban
Muzey işinin tarixi inkişaf yolu və müasir dövrdə üzləşdiyi aktual problemləri.......................................444

Cabbarov Seyid
Tarixi-memorial komplekslərin milli kimlik və yaddaşın formalaşmasındakı rolu:
Azərbaycan və Əlcəzair nümunəsində...450

Ələsgərov Baxış
Muzeylər və qoruqlar arasında beynəlxalq əməkdaşlığın perspektivləri..455

Abidova Səriyyə
Dünya muzeylərində İslamın izləri..461

Allahverdiyeva Nurcan
Humanizmin məbədləri: Renessans muzeylərinin tarixi və estetik funksiyası...466

Hüseynov Orxan
Qoruq və muzeylərdə süni intellekt və yeni texnologiyalar...471

IV Bölmə
Sənət əsərləri...475

Adil Şıxəliyev..476

Quliyev Sahib..480

Quliyev Vüqar...485

QƏDİM ALBAN YOLU: KEÇMİŞİN İZİ İLƏ, GƏLƏCƏYİN YOLUNDA

Elnur Nəciyev Rasim oğlu
Bakı Mühəndislik Universiteti, Bakı, Azərbaycan
enaciyev@beu.edu.az
ORCID: 0000-0003-3989-6257

XÜLASƏ

Məqalədə Azərbaycan ərazisində formalaşmış qədim Albaniya dövlətinə məxsus tarixi-mədəni irs elementlərini özündə ehtiva edən və şərti olaraq "Alban yolu" adlandırılan tarixi-mədəni marşrut tədqiq olunur. Tədqiqatın əsas məqsədi Azərbaycanın müxtəlif coğrafi zonalarını birləşdirən bu marşrutun erkən orta əsrlərdən bəri qorunub saxlanılmış maddi və mənəvi izlərini müəyyənləşdirmək, eləcə də müasir dövrdə onun turizm və mədəni inkişaf baxımından potensialını elmi əsaslarla araşdırmaqdan ibarətdir.

Araşdırma çərçivəsində marşrutun Balakən–Zaqatala–Qax, Şəki–Oğuz–Qəbələ, İsmayıllı–Quba–Dərbənd, Qarabağ–Zəngəzur–Naxçıvan istiqamətləri üzrə həyata keçirilməsi planlaşdırılır. Yol boyunca yerləşən arxeoloji və memarlıq abidələri, etnoqrafik göstəricilər, o cümlədən Şahdağ etnoqrafik qrupu, daş antropomorf və zoomorf fiqurlar, qədim dillərin izləri və müxtəlif dinlərə məxsus ibadət məkanları bu marşrutu unikal və kompleks bir mədəni landşaft nümunəsi kimi xarakterizə etməyə imkan verir.

Məqalədə xüsusi olaraq Şəki–Oğuz istiqamətində pilot mərhələ kimi nəzərdə tutulmuş 50 km-lik sınaq marşrutu üzrə aparılmış ilkin tədqiqat nəticələri təqdim olunur. Tədqiqatın nəticələri göstərir ki, "Alban yolu" təkcə tarixi irsin qorunub saxlanılması baxımından deyil, həm də müasir sosial-iqtisadi inkişaf üçün aktual imkanlar yaradan mədəni turizm istiqaməti kimi də qiymətləndirilə bilər. Bu marşrutun inkişafı yerli əhali üçün yeni məşğulluq perspektivləri yaratmaqla yanaşı, bölgənin təbii və mədəni sərvətlərinə marağın artırılması, eləcə də Azərbaycanın multikultural irsinin sistemli şəkildə təqdim və təbliğ edilməsi baxımından əhəmiyyətlidir.

Tarixi yolların abidələr üzrə yürüş (trekkinq) obyektinə çevrilməsi mədəni irsin qorunması ilə turizm potensialının birləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Belə marşrutlar qədim ticarət, ziyarət və ya hərbi yollar boyunca yerləşən arxeoloji, memarlıq və dini abidələri bir sistem daxilində təqdim etməklə, ziyarətçilərə həm fiziki təcrübə, həm də tarixi-bilik yönümlü marşrut təklif edir. Bu proses həm abidələrin tanıdılması və mühafizəsinə, həm də kənd yerlərində dayanıqlı turizmin inkişafına şərait yaradır. Yürüş marşrutlarının abidələrə inteqrasiya olunması bölgələrin mədəni landşaftını daha əlçatan edir və tarixlə təbiətin vəhdətində maarifləndirici bir mühit formalaşdırır.

Nəticə etibarilə, "Alban yolu" konsepsiyası qədim tariximizin sistemli elmi tədqiqi, mədəni və mənəvi irsimizin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından həm elmi, həm də tətbiqi müstəvidə böyük perspektivə malik bir tədqiqat obyektidir.

Açar sözlər: Alban yolu, Azərbaycan Albaniyası, tarixi marşrut, mədəni irs, turizm potensialı, multikulturalizm, Şəki-Oğuz bölgəsi.

THE ANCIENT ALBANIAN ROUTE: TRACING THE PAST, SHAPING THE FUTURE

Elnur Rasim oglu Najiyev

ABSTRACT

This article explores a historical and cultural route conditionally referred to as the "Albanian Route," which encompasses elements of the tangible and intangible heritage of the ancient state of Azerbaijan Albania that emerged on the territory of present-day Azerbaijan. The primary objective of the research is to identify the historical and cultural traces preserved since the early middle Ages along this route, and to scientifically assess its potential in the context of modern tourism and cultural development.

The route includes the Balaken–Zaqatala–Qakh, Sheki–Oghuz–Gabala, Ismayilli–Quba–Derbent,

and Karabakh–Zangazur–Nakhchivan directions. Along its path are found archaeological and architectural monuments, ethnographic features—particularly the Shahdag ethnic group—anthropomorphic and zoomorphic stone sculptures, traces of ancient languages, and sacred sites belonging to various religions, characterizing the route as a unique and complex cultural landscape.

The article presents preliminary findings from a pilot section of 50 km between Sheki and Oghuz. The research reveals that the "Albanian Route" is not only significant in terms of historical preservation but also holds relevance as a cultural tourism initiative that may enhance local employment opportunities, increase interest in natural and cultural landmarks, and promote the systematic presentation and protection of Azerbaijan's multicultural heritage.

The transformation of historical routes into trekking paths centered around heritage monuments holds significant importance in terms of integrating cultural heritage preservation with tourism development. Such routes, which encompass archaeological, architectural, and religious monuments located along ancient trade, pilgrimage, or military roads, offer visitors both a physical experience and an educational journey through history. This process supports not only the recognition and protection of monuments but also the development of sustainable tourism in rural areas. Integrating heritage sites into walking routes enhances access to cultural landscapes and fosters an educational environment where history and nature coexist in harmony.

In conclusion, the "Albanian Route" concept is deemed a promising subject of both scholarly and applied research, offering valuable insights into the systematic study of Azerbaijan's ancient history and the preservation of its cultural and spiritual heritage for future generations.

Keywords: Albanian Route, Azerbaijan Albania, historical route, cultural heritage, tourism potential, multiculturalism, Sheki-Oghuz region.

ДРЕВНИЙ АЛБАНСКИЙ ПУТЬ: ПО СЛЕДАМ ПРОШЛОГО – К ДОРОГЕ БУДУЩЕГО

Эльнур Расим оглы Наджиев

АННОТАЦИЯ

В статье исследуется историко-культурный маршрут, условно называемый «Албанским путём», который охватывает элементы материального и нематериального наследия древнего государства Албания, сформировавшегося на территории современного Азербайджана. Цель исследования заключается в выявлении историко-культурных следов, сохранившихся с раннего средневековья до наших дней вдоль данного маршрута, а также в научной оценке его потенциала в контексте современного туризма и культурного развития.

Маршрут охватывает направления Балакен–Загатала–Гах, Шеки–Огуз–Габала, Исмаиллы–Губа–Дербент, Карабах–Зангезур–Нахчивань. На всём его протяжении располагаются археологические и архитектурные памятники, этнографические маркеры, включая этническую группу Шахдаг, каменные антропоморфные и зооморфные фигуры, следы древних языков и культовые сооружения различных религий, что позволяет рассматривать данный маршрут как уникальный и комплексный пример культурного ландшафта.

Особое внимание уделено предварительным результатам исследований пилотного участка длиной 50 км по направлению Шеки–Огуз. Полученные данные подтверждают, что «Албанский путь» представляет собой не только объект сохранения исторического наследия, но и важное направление культурного туризма, способное создать новые экономические возможности для местного населения, а также способствовать популяризации природного и культурного богатства региона и продвижению мультикультурного наследия Азербайджана.

Преобразование исторических путей в маршруты пешеходного туризма (треккинга), проходящие через памятники, имеет важное значение с точки зрения объединения охраны культурного наследия и развития туристического потенциала. Такие маршруты, охватывая археологические, архитектурные и религиозные памятники, расположенные вдоль древних торговых, паломнических или военных дорог, предлагают посетителям как физический опыт, так и познавательное путешествие.

Этот процесс способствует не только популяризации и охране памятников, но и развитию устойчивого туризма в сельских районах. Интеграция памятников в пешеходные маршруты делает культурные ландшафты более доступными и формирует образовательную среду, в которой история и природа сосуществуют в гармонии.

В заключение отмечается, что концепция «Албанского пути» обладает значительным научным и прикладным потенциалом с точки зрения системного изучения древней истории Азербайджана, сохранения культурно-духовного наследия и его передачи будущим поколениям.

Ключевые слова: Албанский путь, Азербайджанская Албания, исторический маршрут, культурное наследие, туристический потенциал, мультикультурализм, регион Шеки–Огуз.

GİRİŞ

Məqalədə əsas tədqiqat obyekti Azərbaycan Albaniya dövlətinin mövcud olduğu illərdə və süqutundan sonra bu irsin davamçılarının tarixi Alban yolu üzərində yaratmış olduğu məbədlər və digər tarixi abidələrdir. Alban yolunun ən mühüm hissələrindən biri Şəki və Oğuz rayonlarının payına düşür. Niyə məhz Alban yolu? Dünən də, bugün də, sabah da ticarət və strateji əhəmiyyətli ərazilər olub və olacaqdır. Bu əhəmiyyətli yollar üzərində isə tarix boyu insanlığa istər mənəvi, istərsə də maddi baxımdan xidmət edən tikililər inşa edilmişdir. Xüsusilə də mənəvi baxımından inşa edilən tikililər diqqəti cəlb edir. Zərdüştilik dövründə zərdüşti məbədlər, xristianlıq dövründə kilsələr, sövmələr, monastırlar, islam bərqərar olduqdan sonra isə İslam memarlıq nümunəsi olan məscidlər, zaviyələr, təkkələr, namazqılanlar inşa edilməyə başlanmışdır. Bu abidələr içərisində Alban yolu üzərində inşa edilən sövmələrlə namazqılanlar adlanan memarlıq nümunələri arasındakı oxşarlıq istifadə edilən yolun əhəmiyyətini, nə üçün istifadə edildiyini başa düşməyə imkan verir. Məsələn, Akif Məmmədli "Balakən-Zaqatala bölgəsinin tarixinə dair oçerklər" əsərində yazır: "bölgəyə xas olan, başqa yerlərdə rastlanmayan namazqılanlar... gözəl bir çeşmənin yanında, yaxud təmiz sulu bir arx üzərində, kiçik çay kənarında dörd dairəvi sütun üzərində kirəmitli çardağı olan namazqılanlar adətən yolların kəsişdiyi yerlərdə, el arasında deyildiyi kimi "dömbələrdə" inşa edilir, bura yolçular üçün namaz qılınan, həm günəşdən, yağışdan daldalanan yer, həm də yaşlıların, sufilərin görüşüb həmsöhbət olduğu yer idi [14, s. 43-44]." Gətirilən bu örnək islam abidəsi ilə bağlı olsa da məqsəd eyni idi. Biz tədqiqatın gedişində xüsusilə dağlarda, yolların kənarında inşa edilmiş sövmələrdən bəhs edərkən eyni yanaşmanın bir daha şahidi olacağıq. Bu yolu ona görə "Alban yolu" adlandırdıq ki, uzun müddət - Şərqin ilk ana kilsəsi Kiş məbədindən başlayaraq 1836-cı ildə Alban katalikosluğunun ləğvinə qədər Azərbaycanın xristianlıq tarixinə də xidmət etmişdir. Bu bizə Şəkinin xristianlıq tarixi barədə yolgöstərici olacaqdır.

Alban yolunun bir hissəsi: Şəkidən Oğuza

Abbasqulu Ağa Bakıxanov Şəkini Şirvan məmələkətinin bir hissəsi hesab edir və yazırdı: "Dərbənd ətrafında, Tabasaranın çox hissəsində, Quba, Şəki, Bakı və Şirvan qəzalarının şərq hissəsində, Salyanda yaşayanlar, farsların, ərəblərin, türklərin, monqolların və tatarların nəsillərindəndir. Bu ölkədə olan tatlar – erməni və yəhudilər zamanla daha çox müsəlmanlarla qarışmışlar; Tabasaranda, Dərbənd, Bakı, Quba və Kürədə onlar çox azdır, Şirvan və Şəkidə isə başqa yerdən daha çoxdurlar. Onlar öz dinlərini və qismən də dillərini saxlamışlar. Bu diyarda müxtəlif tayfalardan olan əhalinin varlığı sübut edir ki, əksər tayfa və kəndlər hazırda da öz adını və dilini saxlayır. Şəki, Şirvan və Qubada yaşayan Udilu tayfasını Udi şəhər sakinlərinin nəsillərindən hesab etmək olar [21, s. 21]." Bu məlumatda Şəkinin xristianlıq tarixinə dair maraqlı məqama toxunulur və qeyd edilir ki, tat adlandırılan (türk olmayanları, yaxud da türk olub oturaq həyat tərzi keçirənləri də belə adlandırırdılar. – E.N.) erməni və yəhudi dinində olan əhali Şəkidə üstünlük təşkil edirdi. Bu məlumatda bir məsələni mütləq diqqətə almaq lazımdır ki, erməni və yəhudi kimi təqdim edilən əhalinin etnik olaraq deyil, din olaraq – yəni qriqorianlaşmış, yəhudiləşmiş olması nəzərdə tutulurdu. Abbasqulu Ağa Bakıxanov "Gülüstan-i İrəm" əsərində Şəki əhalisinin hansı dildə danışması məsələsinə isə belə aydınlıq gətirirdi: "Bütün Şəki ölkəsində əhalisi türk dilində danışır ki, bu da türk, monqol və tatar mənşəli olmasını sübut edir. Bu türk ləhcəsində hazırda Ermənistanda, Gürcüstanın bir hissəsində, Azərbaycanda və əksər Persiya vilayətlərində danışırlar. Bu ləhcə türk və cağatay, kumık və noqay ləhcəsi arasında orta mövqe tutur [21, s. 25]."

Şəki həm də Azərbaycanın ən qədim xristianlıq mərkəzlərindən biridir. Buna Kərim Ağa Fateh də "Şəki xanlarının müxtəsər tarixi" adlı əsəri ilə bir daha şahidlik edir: "Noxuda (Şəkidə - E.N.) bir keşiş varmış, amma nə tarixdə olduğu məlum deyildir, adına Qarakeşiş deyərlərmiş. Noxuda böyük imiş. Və bir keşiş də Kiş kəndində böyük imiş. Qarakeşiş Kişdəki keşişin qızını oğluna istər ki ala. Kişdəki keşiş deyər

ki, mənim qızım ağ su ilə pərvəriş tapıbdır, qara su olan yerə qızımı verməraəm. Sonra Qarakeşiş deyər ki, Kiş çayından bir arx mən də evimin yanına gətirərəm. Kişdəki keşiş deyər ki, suyu gətir, sonra qızımı oğluna verim. Qarakeşiş bu sudan bir arx gətirər. Sonra (Kişdəki keşiş) qızını bunun oğluna verər. Və Qarakeşişin oğlunun adı Candardır. Candar bir neçə vaxtdan sonra müsəlman olub, adına Əlican deyibdirlər və Əlicanın oğlu Qutul xandır. Qutul xanı İran padşahının biri (Bir sonrakı mənbədən göründüyü kimi Azərbaycan Qaraqoyunlu dövlətinin hökmdarı Cahanşahın dövrünə uyğun gəlir – E.N.) Şəkidə xan edibdir. Qutul xanın oğlunun adı Şəki xandır. Və Şəki xanın oğlunun adı Həsən Sultandır [7, s. 94; 24, s. 5; 19, s. 3]." Qarakeşiş oğullarının müsəlman olması tarixini Hacı Seyid Əbdülhəmid öz əsərində dəqiqləşdirərək belə yazır: "Piran-i kühənsal (Qocaman) sələflərin rəvayət və ixbaratlarından mənqul (nəql) olunubdur ki, 848 sənəyi islamiyyədən müqəddəmdə (öncə) (miladi 1444/1445 – E.N.) Şəki vilayətində müstəqillən hakim və xan olmayıb, ancaq kəndxuda və riş-i səfid (ağsaqqal) səlah və tədbirlərilə ümüratların (işlərin) dolandırıblar. Haman tarixdə Candar Qarakeşiş oğlu müsəlman olub, adını Əlican qoyubdur [3, s. 6]". Dövrünün tanınmış ziyalısı Mirabbas Mirbağır¬zadənin 1927-1928-ci illərdə "Maarif işçisi" jurnalında nəşr edilmiş "Şəki qəzasında hökmranlıq tarixi haqqında müxtəsər məlumat" adlı məqaləsində Şəki qəzasının tarixinə nəzər salınarkən belə qeyd olunur: "Tarixlərdən alınan məlumata görə, miladdan əvvəlki dövrlərdə Şəki qəzasında "Alban" və sonrakı ilk dövrlərdə isə "Ağvan" padşahları hökmranlıq etmişdirlər"[19a, s. 63-67; 20, s. 135]. Bu əsərdə Hacı Çələbinin Kişin Qarakeşiş oğulları ilə bağlılığı iddia olunur: "Şəki qəzasında yaşayan udi milləti haqqında etnoqrafik tədqiqat aparmış və bu xüsusda lazımi məlumat vermiş olan A.A.Arutinovun dediyinə görə, Hacı Çələbi Kiş kəlisası keşişlərindən birinin nəvəsi imiş. Nadir şah zamanında əmniyyətli bir vəzifədə bulunurdu. Hacı Çələbi islam dinini qəbul edib Məkkə ziyarətinə getmiş və Nuxaya qayıtdıqdan sonra Hacı Çələbi adlanmışdır. Fəqət kütübxanəmizdə mövcud olub və müəllifi qeyd edilməyən Şəki tarixinə aid əl yazılı bir kitabda yazıldığına görə, Hacı Çələbinin nəsli, onun ənkə babası Qarakeşişin oğlu Candarın islam dinini qəbul edib adını Əlican qoyduqdan etibarən müsəlman olaraq gəlmişdirlər [19a-19f; 20, s. 148]." Ümumiyyətlə Şəkidə Qarakeşiş oğullarının idarəçiliyi 110 il – 1441-ci ildən 1551-ci ilə qədər davam etmiş və Azərbaycan Səfəvi hökmdarı Şah I Təhmasib onların hakimiyyətinə son qoymuşdur [6, s. 6].

Tədqiqatımız Azərbaycanın müəyyən ərazisinin - Şəkinin Kiş, Vərəzət, Orta Zəyzid, Baş Zəyzid, Bideyiz, Baş Küngüt, Baş Kəldək, Oraban, Oğuzun isə Muxas, Bucaq, Calut kəndlərinin ərazisindəki xristian irsimizi və bu irsin əmanəti olan Alban yolunu əhatə edir. Adlarını çəkdiyimiz kəndlərdən bəziləri barəsində Mirabbas Mirbağırzadə 1926-cı ildə "Maarif işçisi" jurnalında çap etdirdiyi "Azərbaycan qəzaları III. Şəki qəzası" adlı məqaləsində belə yazırdı: "Şəki qəzasında... ikinci dairədə Baş Gəldək (türklərdir),... Bideyiz (qədim udi kəndidir), Bucaq.., Zəyzit (hazırda türklər sakindir; hamısı kömürçüdür)"[17, s. 69-77; 20, s. 183]. Təbii ki Alban yolu sadəcə sadaladığımız və haqqında bəhs edəcəyimiz kəndlərin ərazisini əhatə etmirdi. Bugün Azərbaycan alban abidələrinin xəritəsinə nəzər salanda bu yolun birini Qarabağdan, İrəvandan, Naxçıvandan, digərini Balakən istiqamətindən Dərbəndə qədər izləmək mümkün olur. Alban yolunun sadəcə Şəki və qismən Oğuza düşən hissəsi kifayət qədər zəngin alban abidələrinə - kilsələrinə, qəbir abidələrinə, qalalarına, qüllələrinə – şahidlik edir. İlkin tədqiqatımız da tariximizdə daha az tədqiq olunmuş məhz bu ərazilərinə diqqət yetirməyə çalışmışıq. Qeyd edək ki, tarixi Alban yolu üzərindəki Kiş, Zəyzid məbədləri və Muxas qülləsi ayrıca tədqiq olunmuş, digər abidələr isə ümumi formada Azərbaycanın Albaniya dövrü tarixi, Şəkinin memarlıq tarixi çərçivəsində tədqiqata cəlb edilmişdir. Zəyzid məbədinə dair Vilayət Kərimovun, Muxas qülləsi ilə bağlı Firudin Qədirovun tədqiqat əsərini, Kiş məbədi ilə bağlı isə Gülçöhrə Məmmədova, Səbinə Hacıyeva və Tofiq Abdullayevin həmmüəllifi olduğu əsəri misal göstərmək olar. Aparılan tədqiqatlar içərisində qəbir abidələrinə dair Mübariz Xəlilovun, Elşən Abdurahmanovun əsərlərini xüsusilə fərqləndirmək olar. Məbədlərlə bağlı isə Vilayət Kərimovun, Natiq Alışovun, Akif Məmmədlinin, Gülçöhrə Məmmədovanın, Aliyə Qaraəhmədovanın əsərlərini fərqləndirə bilərik. Şəkinin memarlıq tarixinə dair Əbdülvahab Salamzadə, Kamil Məmmədzadənin həmmüəl¬lif olduğu əsəri qeyd edə bilərik. Yeri gəldikcə Azərbaycana qonşu xristian dövlətlərindəki həmyaşıd xristian abidələri ilə müəyyən paralellər və müqayisələr aparılmışdır. Ümumiyyətlə, aparılmış tədqiqat Azərbaycandakı xristian abidələrinin unikallığını, xalqın mədəni dəyərlərini də özünə qataraq milli-mənəvi fərqlilik yaratdığını sübut edir.

Alban yolu: Kiş kəndindən Oğuzun Calut kəndinə qədər olan hissə

Kiş kəndi Şəki şəhərinin 5 kilometrliyində yerləşir. Kişin alban tarixi ilə bağlı ən mühüm abidələrindən biri sözsüz ki, Kiş kilsəsidir ki, bu abidə Maaflar məhəlləsində yerləşir. Kişdə yalnız alban məbədi deyil, "Gələrsən-Görəsən" qalası da var, lakin bu qala Kənddən bir qədər aralıda və Kiş çayının

yuxarı axarında yerləşir. Kiş kəndinin həm qədim məhəllələri və onlarda müdafiə divarlarının qalıqları kəndin qədim tarixindən xəbər verir. Kilsənin ən qədim bünövrəsi I-III əsrlərdə daha qədim bir məbədin qalıqları üstündə tikilmişdir. Bu məbədin keçmişinin bütpərəst məbədi olması ehtimal edilir. Sadəcə xristianlığın rəsmi səviyyədə qəbulundan sonra abidə xristian abidəsinə çevrilmişdir. Kiş məbədi daha çox dövrün mənbələrində V əsr hadisələri ilə bağlı olaraq xatırlanır [8, s. 11]. Kiş yepiskopluq mərkəzi olmuşdur. XIX əsrin 50-60-cı illərində Qafqazdakı ruslar tərəfindən Şəkiyə köçürülmüş ermənilər Kiş kəndinin kilsəsini təmir edib memarlığını saxtalaşdırmışdılar. Maraqlıdır ki, Şəki şəhəri və Şəki əyalətinin kameral təsvirlərində 1824-cü il üçün Kişdə bir nəfər də olsun xristian qeydə alınmamışdır.

Kişdən sonra Alban yolu üzərindəki bir digər tarixi kənd Şəki rayonunun Baş Zəyzid kənd inzibati ərazi dairəsinə daxil olan Vərəzət kəndidir. Şəki şəhərinin Gəncəli məhəlləsindən bu kəndə dağ yolu var. Bu yol Vərəzət yolundan çox, Zəyzid yolu kimi tanınır. Şəki şəhərinə yaxın olan Zəyzid əhli dağ yolu ilə gəlib-gediş üçün bu yolu istifadə edərdi. Kənddə hər hansı bir alban məbədi olmasa da Alban yolu üzərində zəyzidlilər üçün mühüm əhəmiyyət kəsb etmiş yaşayış məntəqəsi olduğunu ehtimal edə bilərik.

Alban yolu üzərindəki ən qədim kəndlərdən biri də Orta Zəyziddir. Orta Zəyzid kəndi Böyük Qafqaz dağlarının ətəyində yerləşir və Zəyzid zonasının ikinci böyük kəndidir. Kənddə X-XI əsrlərə aid Zəyzid məbədi mövcuddur. Bu məbəddən savayı kəndin ərazisində daha iki alban kilsəsi var. Bu kilsələrdən biri kəndin aşağısında, digəri isə kəndin yaşlılarının verdiyi məlumata görə kənddən təxminən 5 km şərqə doğru dağın üzərində yerləşir. Əslində ikinci məbəd Bideyiz kəndinə aid edilən və dağın üzərində yerləşən məbədlə eyniləşdirilə də bilər. Orta Zəyzid kəndindəki birinci və ən böyük məbəd planda şərq tərəfdən yarımdairəvi apsida və 3 düzbucaqlı, xaç formalı çıxıntılardan ibarətdir. Bu abidədə çıxıntıların dərinliyi az olduğundan onların praktiki istifadə əhəmiyyəti yoxdur [22, s. 14]. Kilsədən bir qədər aralıda erkən orta əsrlərə aid xristian qəbristanlığı və qəbir daşları yerləşir [22, s. 21]. Orta Zəyziddə ölçü və görünüş baxımından Zaqataladakı Paşan meşəsində (VII-XI əsrlər) və Muxax kəndindəki alban məbədlərinə bənzəyən sövmə də var [2, s. 156]. Bu məbədin sövmə olmasını və karvan yolları üzərində tikilməsini təsdiq edən mühüm faktlardan biri məbədin Orta Zəyzid kəndindən təxminən 5 km aralıda, Bideyiz istiqamətində dağ üzərində yerləşən digər məbədi və Bideyizdəki alban məbədini birləşdirən Alban yolu üzərində yerləşməsidir.

Alban yolu üzərində yerləşən dağ yolu ilə Orta Zəyzidlə əlaqəsi olan kəndlərdən biri də Bideyiz kəndidir. Kəndin yaxınlığındakı dağlıq ərazidə Alban kilsəsi yerləşir. Min ildən artıq tarixi olan bu kilsə öz möhkəmliyini qoruyub saxlamışdır. Həmin kilsədən xeyli sayda tarixi əşyalar tapılmışdır. Kilsə ətrafında yerləşən düzənlik ərazilərdə isə təsərrüfat işləri vaxtı xeyli küp qəbirlərə də təsadüf edilmişdir [4, s. 1-2].

Şəki rayonunda Alban yolu üzərindəki növbəti kənd Küngüt çayının* sahilində, Qızılqaya dağının ətəyində yerləşən Baş Küngüt kəndidir. Baş Küngüt kəndindəki yaxşı araşdırılmış tarixi abidələrdən biri Kilsədağın üzərindəki qaladır. Bu qalanın ilkin tədqiqi Firudin Qədirovun adı ilə bağlıdır [10, s. 63-64]. Tədqiqatçı Firudin Qədirov Küngüt qalasının əsasının IV-VI əsrlərdə qoyulduğunu, VII-VIII əsrlərdə bu qaladan müdafiə istehkamı kimi geniş istifadə olunduğunu, XI əsrdə Qəbələ və Şəkinin müstəqil feodal hakimliklərinə son qoyulması və ya səlcuqların buraya yürüşləri dövründə dağıldığını qeyd edir [11, s. 42; 10, s. 71; 13, s. 77]. Kilsədağ ərazisindəki alban məbədi də diqqəti cəlb edir. Bu abidənin tarixi ilə bağlı hər hansı bir məlumat, yaxud da abidənin qorunmasına dair hər hansı bir lövhə yoxdur. Tədqiqatçı A.Qaraəhmədova qala GİRİŞindən 10-12 m aralı şərqə tərəf olan hissədəki (qaladan çöldə) bu məbədin VI-VII əsrdə tikildiyini güman edirdi [13, s. 78; 9]. Baş Küngüt kəndində Albaniyanın xristianlıq tarixinə şahidlik edən qədim qəbristanlıq mövcuddur. Çay və ya qaya daşından olmaqla üzəri sal daşlarla örtülən torpaq qəbirlər Şəkinin yalnız Baş Küngüt kəndində (şəkil 2) deyil, Orta Zəyzid (şəkil 1), o cümlədən Oğuz rayonunun Calut (şəkil 3), Kərimli kəndlərində (şəkil 4) və digər ərazilərdə çoxluq təşkil edir. Bu cür qəbir tiplərinə Albaniyanın digər erkən orta əsr abidələrində də rast gəlinir. Belə qəbirlərin kamerası torpaqla doldurulmuş, üzəri bəzən ağacla da örtülmüşdür [1, s. 114-141].

Alban yolu Baş Küngütdən sonra Şəki rayonunun Baş Kəldək kəndi ilə davam edir. Şəki rayonunun Baş Kəldək kəndində yerləşən 326 inventar nömrəli Gavur qala ölkə əhəmiyyətli memarlıq abidəsidir [5; 16]. Hal-hazırda abidənin yerləşdiyi yüksəkliyin ətəyinə Şəki yaylası istirahət mərkəzinin ərazisindən asma körpü ilə yol var. Abidə Azərbaycanın xristianlıq tarixi ilə bağlı olub Sasanilər dövrünə aid olsa da, yerli əhali arasında daha çox Həzrəti Əli qalası kimi də tanınır. Buna səbəb abidənin yüksəklikdə yerləşməsidir. Abidə Azərbaycan Respublikasının alban irsi abidələri siyahısına daxildir.

Alban yolunun keçdiyi digər bir kənd Orabandır. Orabanda I Qarabağ Müharibəsinə qədər mövcud olmuş qədim alban məbədi artıq tarixə qovuşub və kəndin ərazisindəki alban məzarlığı da baxımsız vəziyyətdədir. Kəndin yamac hissəsində yerləşən bu məzarlıqda məzar daşları formasına görə Calut, Orta

Zəyzid və Baş Küngütdəkilərlə eynidir və hətta eyni dövrü belə paylaşması ehtimal edilə bilər.

Alban yolu üzərində yerləşən hələlik tədqiq etdiyimiz sonuncu kəndlər Oğuz rayonu ərazisinə aid Bucaq, Muxas və Calutdur. Xüsusilə Muxas və Calut kəndlərinə diqqət yetirmək maraqlı olardı. Kəndin ərazisində IX əsrə aid Muxas qülləsi var. Bu qüllə Oğuz rayonunun Muxas kəndinin şimalında, Daşağıl keçidi qarşısında yerləşir. Qüllə şimal, cənub və qərb tərəflərdə düzbucaqlı planda, şərq tərəfdə isə yarımdairəvi olub ərazinin relyefinə uyğunlaşdırılmışdır [11; 12, 98-102]. 1965-ci ildə Muxas qülləsində aparılmış arxeoloji qazıntılar nəticəsində şirli və şirsiz saxsı qab qırıqları tapılmışdır. ASE-də isə abidə IX-XIII əsrlərə aid edilir [25, s. 110]. Calut kəndi ərazisində qədim və orta əsrlərə aid arxeoloji və memarlıq abidələrindən Alban kilsəsinin, Alban məbədinin, qədim yaşayış yerinin, Alban nekropolunun qalıqları var ki, bunlar da Azərbaycan Respublikası Nazirlər Kabinetinin xüsusi qərarı ilə ölkə və yerli əhəmiyyətli abidələr siyahısına daxil edilmişdir. Calut monastırı Oğuz rayonunun Calut kəndində yerləşən V–VI əsrlərə aid alban monastırıdır. Kompleksə zəngin bəzədilmiş böyük kilsə, kiçik qədim bazilika və köməkçi binaların xarabalıqları daxildir. Qədim Calut bazilikası iri zal məbədidir. Məbədin qərb və cənub divarları qismən saxlansa da, şimal və şərq divarlarının çox az hissəsi salamat qalmış, daşları isə məbədin içinə tökülmüşdür. 1811-ci ildə kompleksə əlavə edilmiş məbəd [15, s. 54-55; 23, s. 39] isə dörd daxili sütuna malik, günbəzsiz, iri üçnefli bazilikadır.

NƏTİCƏ

Şəki Azərbaycanın ən qədim mədəniyyət mərkəzlə¬rindən biri olmaqla yanaşı xristian irsimizi qoruyub saxlamış yurd yerlərimizdən biridir. Xüsusilə də tədqiq etməyə çalışdığımız Alban yolu fonunda haqqında bəhs edilən ayrı-ayrı xristianlıq abidələri – kilsələr, monastırlar, sövmələr, Albaniya dövrü qəbristanlıqları – bu tarixi zənginliyin sadəcə bir hissəsidir. Xüsusilədə Azərbaycanda xristian abidələrini bir-biri ilə birləşdirən Alban yolu əsrlər boyu öz əhəmiyyətini itirməmiş, uzun müddət karvan yolları kimi, daha sonralar isə kəndlər arası dağ yolları kimi öz əhəmiyyətini qoruyub saxlamışdır. Təbii ki son illərdə bu yollardan istifadənin məhdudlaşması bəzi alban abidələrinin baxımsızlıq ucbatından məhvinə gətirib çıxartmışdır. Məsələn Bideyiz və Orta Zəyzid arasındakı yarımçıq məbədi misal göstərdik. Bu məbədlər arasında tariximizin bir səhifəsi kimi əlaqələrin Alban yolu vasitəsi ilə yenidən istifadə edilən bir səviyyəyə gətirilməsi bir çox aspektdən faydalı olacaqdır. Bu həm turistik baxımından, həm də multikulturalizm ənənələrinə sahib bir ölkə olaraq xristian irsimizin daha düzgün təbliği üçün geniş imkanlar yaradacaqdır.

Bütövlükdə Alban yolu ilə bağlı apardığımız tədqiqatın Azərbaycan Albaniya dövlətinin xristian irsinin təbliği və bu irsin qorunması istiqamətində yeni bir istiqamət formalaşdıracağına ümid edirik. Bu bizə nəinki xristianlıq tariximizə, hətta bu yol üzərində yerləşən islam dövrü abidələrimizin də paralel şəkildə geniş kütləyə çatdırmağımıza imkan verəcəkdir.

ƏDƏBİYYAT SİYAHISI

1. Abdurrahmanov, E., “ Albaniyanın Şəki Vilayətinin Qəbir Abidələri (III-VIII Əsrlər)”, Akademik Tarih ve Düşünce Dergisi Azerbaycan Kültür Başkenti Şuşa’nın 270. Yılı Armağan Sayısı, 2022, s. 114-141.

2. Alışov, N. Azərbaycan Albaniyasının xristian abidələri (arxeoloji materiallar əsasında): tarix üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dis.: 5505.02. N. Ə. Alışov ; AMEA, Arxeologiya və Etnoqrafiya İn-tu.-B., 2014

3. Azərbaycan tarixinə dair materiallar. 3-cü buraxılış. Hacı Seyid Əbdülhəmid. Şəki xanları və onların nəsilləri. Türkcədən çevirən Ə.Subhanverdixanov. Bakı: A.D.E.T.İ. nəşriyyat, 1930

4. Əliyev, R.M. Bideyizə yol (Tarixi-etnoqrafik yazı). Bakı, 2022.

5. Gavur qalaları: Azərbaycanda “Gavur” adı daşıyan tarixi abidələr... //Azadlıq.- 2011.- 27-28 mart.- S.13

6. İsmayıl, M, Bağırova, M. Şəki xanlığı. Bakı: Azərnəşr, 1997.

7. Kərim Ağa Fateh. Şəki xanlarının ixtisar üzrə tarixi // Şəkinin tarixi qaynaqlarda / Ə.Tahirzadə; naşir N.İbrahimov. AMEA Şəki REM. Bakı: Master, 2005

8. Kiş – Qafqaz Albaniyasının – Azərbaycanın görkəmli memarlıq abidəsi. Bakı: XXI – Yeni Nəşrlər Evi, 2002

9. Qaraəhmədova, A. Qafqaz Albaniyasının xristian abidələri (Alazan hövzəsi). Bakı: Elm, 1986.

10. Qədirov, F.V. Küngüd qalası və onun arxeoloji cəhətdən öyrənilməsi haqqında: Qəbələ /F.Qədirov // AzSSR EA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq ser.- 1969.- №4.- S.63-71

11. Qədirov, F.V. Azərbaycanın şimal müdafiə istehkamları. Bakı: Elm, 1984

12. Qədirov, F.V. Muxas qülləsi. Azərbaycan SSR EA Məruzələri, cild 26, 1970, №12

13. Məmmədli, A.Ə. Azərbaycanın şimal-qərb bölgəsinin tarixi abidələri (təsviri və təsnifatı). Dissertasiya. Bakı, 2016

14. Məmmədli, A.Ə. Balakən-Zaqatala bölgələsinin tarixinə dair oçerklər. Bakı: JekoPrint çap evi, 2024

15. Məmmədova, G.H. Azərbaycanın şimal-qərb regionunun memarlıq abidələri. Bakı: Şərq-Qərb, 2014

16. Şəkinin tarixi qalaları… - https://www.azadliq.info/3618.html; Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsi (mct.az)

17. Mirbağırzadə, M. Azərbaycan qəzaları. III Şəki qəzası. Maarif işçisi. 1926, №10 (18), ss. 69-77

18. Mirbağırzadə, M. Şəki qəzasında hökmranlıq tarixi haqqında müxtəsər məlumat. Maarif işçisi jurnalı, 1927,

   a. №1/21, ss. 63-67
   b. №2/22, ss. 105-108
   c. №9/29, ss. 77-86
   d. 1928: №1-2/33-34, ss. 98-107
   e. 1928: №5-6/37-38, ss. 115-122
   f. 1928: №7-8/39-40, ss. 153-157

19. Şəki xanlarının ixtisar üzrə tarixi /Əbdüllətif Əfəndi ; tərc. ed. A. H. Dadaşov ; [ön söz. N. N. Aşmarin]. Bakı: Azərbaycanı Tədqiq və Tətöbbö Cəmiyyəti, 1926

20. Şəkinin tarixi qaynaqlarda / Ə.Tahirzadə; naşir N.İbrahimov. AMEA Şəki REM. Bakı: Master, 2005

21. Бакиханов, А.К. Гюлистан-и Ирам. Баку: Элм, 1991

22. Керимов, В. Храм Зейзит Кавказской Албании. Баку: Элм. 2008

23. Мамедова, Гюльчохра, Зодчество Кавказской Албании, Баку: Чашыоглу, 2004

24. Материалы по истории Азербайджана Выпуск 1. История Шекинских ханов: текст и перевод / Абдул-Латиф-Эфенди ; пер. с тюрк. А.Дадашев ; [предисл. Н. И. Ашмарин]. Баку: О-во обследования и изучения Азербайджана, 1926, на русском.

25. Мухас гүлләси // Азәрбајчан Совет Енсиклопедијасы: [10 чилддә]. VII чилд: Мисир—Прадо. Бакы: Азәрбајчан Совет Енсиклопедијасынын Баш Редаксијасы. Баш редактор: Ч. Б. Гулијев. 1983